# *Zahid ABBASOV:* "Ötən əsrin 80-ci illərinin axırlarından bu günə qədər Şuşanın mədəniyyətini qorumağa çalışmışıq"

"Ulu Öndərin rəhbərliyi ilə 1982-ci ildə Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışında iştirak etdik və bu tədbir mənim taleyimdə çox böyük rol oynadı".

Bunu AZƏRTAC-a Şuşa şəhəri üzrə nümayəndə Zahid Abbasov bildirib. O deyib: "Həmin tədbirdə bütün ziyalılarımız iştirak edirdi. O zaman mənim 29 yaşım var idi. Heydər Əliyev tədbirdə iştirak edən ziyalıların çoxluğuna təəccübləndi. İki gündən sonra məni məsul vəzifəyə təyin etdilər. O vaxtdan çalışıram ki, Heydər Əliyev ideyalarını müdafiə edim. Ötən əsrin 80-ci illərinin axırlarından bu günə qədər Şuşanın mədəniyyətini qorumağa çalışmışıq və həmişə düşünmüşəm ki, bu əmanəti Şuşaya qaytarmalıyıq. İndi çox şadam ki, biz Qarabağa qayıtdıq. Buna görə Ali Baş Komandan İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya şuşalıların adından dərin təşəkkürümü bildirirəm. Çünki onlar bu möhtəşəm sevinci bizə yaşatdılar. Biz də öz növbəmizdə çalışacağıq ki, Azərbaycan mədəniyyətini bütün dünyada təbliğ edək".

Azərbaycan.- 2021.- 1 sentyabr.- S.3.